

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 150 (24.037)

*11 avqust 2022-ci il, cümə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Avqustun 9-da Konya şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğan arasında görüş olub.

Avqustun 9-da Türkiyənin Konya şəhərində V İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər. Bu möhtəşəm tədbirin tamaşaçıları arenaya daxil olan Türkiyə Prezidenti Rəcəb Təyyib Ərdoğanı, Azərbaycan Prezidenti İlham Əliyevi, digər dövlət və hökumət başçılarını hərarətlə alqışlayıblar. Türkiyə Prezidenti Rəcəb Təyyib Ərdoğan Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ilə qısa söhbət edib. Açılış mərasimində komandaların paradı zamanı Azərbaycan atletləri meydana dördüncü daxil olublar. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva komandamızın üzvlərini hərarətlə alqışlayıblar. Açılış mərasimində Azərbaycanın üçrəngli bayrağını atlet Nazim Babayev və voleybolçu Ayşən Abduləzimova aparıblar. Azərbaycanı İslamiadada 281 idmançı təmsil edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına işgüzar səfəri avqustun 10-da başa çatıb.

***

Prezident İlham Əliyev avqustun 10-da Əlcəzair Xalq Demokratik Respublikasının xarici işlər və xaricdəki milli icma naziri Ramtan Lamamranı qəbul edib.



## Keyfiyyətli yerli istehsal məhsulları istehlak bazarında aparıcı mövqe tutur

*Muxtar respublikada iqtisadiyyatın şaxələndirilməsi, yeni istehsal və xidmət sahələrinin yaradılması uğurla davam etdirilməkdədir. Bu istiqamətdə qəbul edilən Dövlət proqramları və atılan məqsədyönlü addımlar muxtar respublika iqtisadiyyatının yeni mərhələyə yüksəlməsinə etibarlı zəmin yaratmışdır. Son illərdə dinamik iqtisadi inkişafı səciyyələndirən əsas cəhətlərdən biri də muxtar respublikada sənayenin sürətli inkişafının aktiv dəstəklənməsidir. Belə ki, muxtar respublikada mövcud təbii və iqtisadi resursların istehsala cəlb edilməsi, qabaqcıl texnologiyaların daha geniş tətbiqi sənaye müəssisələrində rəqabətədavamlı məhsul istehsalına təkan verir. Sənayeləşmə siyasətinə uyğun olaraq daxili tələbatın ödənilməsində yerli məhsulların payını əhəmiyyətli dərəcədə artıran və ixrac imkanlarını genişləndirən müasir sənaye müəssisələri, yeni istehsal sahələri, o cümlədən sənaye məhəllələri yaradılmışdır. Aparılan bu sosial-iqtisadi siyasət çərçivəsində keyfiyyətə nəzarət işi davamlı qaydada təkmilləşdirilir. Bu baxımdan muxtar respublikada istehsal olunan yerli istehsal məhsullarının keyfiyyətinin daha da yüksəldilməsi prioritet vəzifə kimi qəbul edilmiş, 2022-ci ilin iyul ayı ərzində, ümumilikdə, məhsulların 105 halda, o cümlədən qida məhsullarının 104 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya sınağı aparılmış və bu istiqamətdə nöqsan aşkar edilməmişdir.*

“2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”nın icrası istiqamətində aidiyyəti orqanların nümayəndələri ilə birlikdə Culfa rayonunun Dəmirli yaylağında arıçılıq məhsulları istehsalçıları ilə maarifləndirmə xarakterli görüş keçirilmiş və bal məhsulunun fiziki-kimyəvi göstəricilərinə dair müvafiq standartdan çıxarışlar təqdim olunmuşdur.

Qəbul edilmiş müvafiq Dövlət proqramlarının icrası istiqamətində ötən ay emal olunmuş kənd təsərrüfatı məhsullarının 28 halda, meyvə-tərəvəz məhsullarının isə 48 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya analizləri aparılmış, nəticələrin texniki normativ-hüquqi aktların və standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir. Hesabat dövrü ərzində ailə təsərrüfatında istehsal olunan emal edilmiş kənd təsərrüfatı məhsulu üçün 1 ədəd etiket layihəsi standartlara uyğun olaraq hazırlanmış və aidiyyəti üzrə təhvil verilmişdir.

“2022-ci ilin Naxçıvan Muxtar Respublikasında “Sənaye ili” elan edilməsinə dair Tədbirlər Planı”nın icrası istiqamətində iyul ayı ərzində sənaye məhsullarının 41 halda laboratoriya analizləri aparılmış və bu istiqamətdə nöqsan aşkar edilməmişdir. “Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı”nın icrası çərçivəsində “Naxçıvan qovurması”nın istehsalının genişləndirilməsi, kiçikhəcmli taralarda qablaşdırılması və ixracının dəstəklənməsi, meyvə və tərəvəzlərin, bostan məhsullarının qurudulması, qablaşdırılması, etiketlənməsi ilə bağlı aidiyyəti qurumların əməkdaşları ilə birlikdə Şərur şəhərində ailə təsərrüfatları üçün seminar-müşavirə keçirilmiş, ümumilikdə, 38 ailə təsərrüfatının nümayəndələrinə maarifləndirici bukletlər və “Naxçıvan qovurması” əmtəə nişanlı etiketlər təqdim olunmuşdur. Görüşlər zamanı ailə təsərrüfatı məhsullarının tədarük və satışını asanlaşdırmaq məqsədilə ölkəmizin digər bölgələrində ailə təsərrüfatı məhsullarının satışını həyata keçirən təsərrüfat subyektlərinə məxsus 38 ünvan kartı ailə təsərrüfatı nümayəndələrinə paylanılmışdır.



Hesabat ayında 3 ailə təsərrüfatı üçün istehsal etdikləri məhsulların etiketlərində məhsulun adının və digər məlumatların orfoqrafik qaydalara uyğun yazılması, saxlanma şəraitinin və yararlılıq müddətinin qüvvədə olan standartların tələblərinə uyğun göstərilməsini təmin etmək məqsədilə 14 etiket layihəsi hazırlanmışdır. Həmçinin ailə təsərrüfatı məhsullarının keyfiyyətinə nəzarətin aparılması üçün İqtisadiyyat Nazirliyinin əməkdaşları ilə birgə məhsullardan 10 halda nümunələr seçilərək laboratoriyaya təqdim olunmuş, sınaqların nəticələrinin standartların tələblərinə uyğunluğu müəyyən edilmişdir.

Ailə təsərrüfatı məhsullarının satış arealını genişləndirmək məqsədilə İqtisadiyyat Nazirliyi ilə birgə müvafiq məhsulların növ və çeşidlərini özündə əks etdirən kataloq hazırlanmış və 2022-ci il 27 iyul tarixdə Naxçıvan Biznes Mərkəzində həmin kataloqun təqdimat mərasimi keçirilmişdir. Muxtar respublikada fəaliyyət göstərən ictimai iaşə obyektləri ilə ailə təsərrüfatlarının əlaqələndirilməsi, ailə təsərrüfatı məhsullarının ictimai iaşə obyektlərində istifadəsinin və satışının təmin edilməsi üçün tədbirə dəvət olunmuş ictimai iaşə obyektlərinin nümayəndələrinə müvafiq kataloq təqdim edilmişdir.

“Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası üzrə aid qurumların və müvafiq yerli icra hakimiyyətlərinin əməkdaşları ilə birlikdə Ordubad rayonunun Azadkəndində seminar-müşavirə keçirilmiş, iştirakçılara bukletlər və kənd təsərrüfatı məhsulları üzrə standartlarda müəyyən edilmiş təhlükəsizlik tələblərinə dair çıxarışlar təqdim olunmuşdur.

2017-ci il 25 iyul tarixdə beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında xarici bazarlara çıxış imkanına malik məhsul istehsalına diqqətin artırılması, qarşıdakı dövrdə bu imkanların bir daha araşdırılması, ixracın coğrafiyasının genişləndirilməsi üçün verilmiş tapşırıqların, “Naxçıvan Muxtar Respublikasında ixrac potensialının və ixraca dövlət dəstəyinin artırılması ilə bağlı Tədbirlər Planı”nın icrası istiqamətində muxtar respublikadan kənara məhsulların göndərilməsi və satışı üzrə fəaliyyət çərçivəsində Bakı şəhəri və digər bölgələrimizə tələbata uyğun olaraq davamlı qaydada ailə təsərrüfatı məhsullarının göndərilməsi təmin edilir.

Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti ilə birgə turizm sahəsində fəaliyyət göstərən təsərrüfat subyektləri nümayəndələrinin iştirakı ilə AZS ISO 10002:2022 “Keyfiyyəti idarəetmə. Müştəri məmnuniyyəti. Təşkilatda şikayətlərin idarə edilməsi üzrə rəhbəredici sənəd” dövlət standartının tələbləri barədə növbəti maarifləndirici seminar keçirilmiş, yeni qəbul edilmiş standartın müasir tələblərə uyğunlaşdırılaraq təkmilləşdirilməsinin əhəmiyyəti diqqətə çatdırılmışdır.

Naxçıvan Muxtar Respublikasında təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələr barədə keçirilmiş müşavirədə verilən tapşırıqların və “Naxçıvan Muxtar Respublikasında gigiyena və epidemiologiya sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı 2022-2025-ci illər üzrə Dövlət Proqramı”nın icrası istiqamətində qida məhsullarının istehsalı, daşınması, saxlanması və satışı zamanı tibbi-bioloji tələblərə, sanitar-gigiyena norma və qaydalarına əməl olunması istiqamətində nəzarət tədbirlərinin həyata keçirilməsi məqsədilə Gigiyena və Epidemiologiya Mərkəzi ilə birgə muxtar respublikada qida məhsullarının istehsalı, ticarət və xidmət sahələri üzrə fəaliyyət göstərən 32 ictimai iaşə obyektinin sahibləri ilə maarifləndirmə xarakterli görüşlər keçirilmiş, texniki normativ-hüquqi aktlara və standartlara uyğun fəaliyyətin təmin olunması üçün müvafiq tövsiyələr verilmişdir.

Bu il 13 iyun tarixdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabəti sahəsində görülən işlər və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə verilmiş tapşırıqların icrası istiqamətində Dövlət Baytarlıq Xidmətinin əməkdaşları ilə birgə heyvan mənşəli məhsul istehsal edən 3 müəssisədə maarifləndirmə xarakterli görüş keçirilmiş, məhsullardan 3 halda nümunələr seçilərək laboratoriyaya təqdim edilmiş, analizlər üzrə heyvan mənşəli xəstəlik və ya bakteriya aşkar olunmamışdır.

Hesabat ayında Fövqəladə Hallar Nazirliyi və Dövlət Gömrük Komitəsi ilə birgə idxal olunan qızdırıcı elektrik və qaz cihazlarına baxış keçirilmiş, müvafiq təhlükəsizlik sistemi ilə təmin olunmayan cihazların idxalı və satışı məhdudlaşdırılmışdır.

Muxtar respublikada keyfiyyət infrastrukturunun təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilməkdədir.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin mətbuat xidməti***

## Culfa rayonunda abadlıq və quruculuq işləri aparılır



Muxtar respublikamızda həyata keçirilən abadlıq və quruculuq tədbirlərinin böyük bir hissəsini şəhərdaxili yolların əsaslı şəkildə yenidən qurulması və təmiri təşkil edir. Naxçıvan Muxtar Respublikasının bütün bölgələrində olduğu kimi, Culfa rayonunda da yol infrastrukturunun yenilənməsi istiqamətində görülən işlər şəhər və kəndlərimizin abadlığına, eləcə də insanların rahatlığına xidmət edir.

Culfa şəhərində aparılan abadlıq və quruculuq işlərindən biri də şəhərdaxili yolların yenidən qurulmasıdır. Quruculuq işlərini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Culfa Rayon İdarəsinin inşaatçıları həyata keçirir. Bu ilin iyun ayından başlanan quruculuq işləri, hazırda rayon mərkəzinin Təbriz, Şəhidlər, Məhərrəm Əsgəroğlu və Xətai küçələrində davam etdirilir. Piyadaların gediş-gəlişi üçün nəzərdə tutulan yollara kilid daşlar döşənilir, bordürlər quraşdırılır. Həmçinin yolların kənarına suötürücü kanallar qurulur, rabitə, işıq xətlərinin quraşdırılması üçün plastik borular qoyulur. Bu işlər başa çatdıqdan sonra şəhərdaxili yollara asfalt örtük salınacaq.

**Xəbərlər şöbəsi**

# Payızlıq taxıl əkinləri üçün hazırlıq işləri görülür

*Taxıl insanların çörək və çörək məmulatlarına olan tələbatının ödənilməsində əvəzolunmaz kənd təsərrüfatı bitkisidir. Buna görə də taxılçılıq muxtar respublikada kənd təsərrüfatının ərzaq təminatında mühüm əhəmiyyətə malik ən vacib sahələrindən biridir. Bu sahəyə göstərilən hərtərəfli və davamlı dövlət dəstəyinin nəticəsidir ki, intensiv becərmə texnologiyalarına və mütərəqqi suvarmalara üstünlük verilməklə əkin sahələri genişlənir, məhsuldarlıq artırılır.*

Respublikada aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində kənd təsərrüfatı bitkilərinin əkin strukturunda əhəmiyyətli dəyişikliklər baş vermiş, əsasən, dənli və dənli-paxlalıların, xüsusən buğdanın istehsalına diqqət artırılmış, artıq bir neçə ildir ki, aqrar sahədə daxili istehsal hesabına əhalinin əksər kənd təsərrüfatı məhsulları ilə təmin edilməsinə nail olunmuşdur.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan və ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən müstəqillik strategiyasına uyğun olaraq aqrar bölmədə aparılan islahatlar Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının bütün sahələrində olduğu kimi, taxılçılığın da inkişafına etibarlı zəmin yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2007-ci il 23 yanvar tarixli "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" və 2008-ci il 21 avqust tarixli "Kənd təsərrüfatı məhsulları istehsalçılarının toxum, gübrə və damazlıq heyvanları ilə təmin edilməsinə əlavə dəstək verilməsi barədə" sərəncamları, eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın uğurlu icrası aqrar bölmənin, xüsusilə də taxılçılığın inkişafında müstəsna rol oynayır.







Muxtar respublikamızda yaradılan şəraitin nəticəsidir ki, 2021-ci ilin payızında və 2022-ci ilin yazında əkilmiş 33466 hektar taxıl sahələrindən 107 min 418 ton məhsul əldə edilmişdir. Bu isə məhsuldarlığın 32,1 sentner olması deməkdir.

İyulun 7-də "Araz" Elm-İstehsalat Birliyinin təcrübə təsərrüfatında Naxçıvan Muxtar Respublikasında taxılçılığın inkişafı və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə də Ali Məclisin Sədri cənab Vasif Talıbov muxtar respublikada bu sahənin inkişafı istiqamətində qazanılan uğurlara nəzər salmış, ərzaq təhlükəsizliyi tədbirləri sırasında taxıl istehsalının xüsusi yer tutduğunu, taxıla olan tələbatın tam şəkildə yerli istehsal hesabına ödənilməsinin qarşıda duran əsas vəzifələrdən olduğunu vurğulamışdır. Muxtar respublika rəhbəri müşavirədə taxılçılığın inkişafına əkin sahələrinin genişləndirilməsi ilə deyil, məhsuldarlığın artırılması yolu ilə nail olmağın zəruriliyini qeyd etmiş, görülən işlərə baxmayaraq, taxılçılıq sahəsində məhsuldarlığa tam nail olunmamasının əsas səbəbi kimi aqrotexniki qaydalara ciddi əməl edilməməsini də göstərmişdir.

Artıq muxtar respublikada payızlıq taxıl əkinlərinə hazırlıq işlərinə başlanılıb. Taxılçılıqla məşğul olan fermerlər yadda saxlamalıdırlar ki, taxıldan yüksək məhsul əldə etmək üçün bütün aqrotexniki tədbirlər vaxtında və keyfiyyətlə yerinə yetirilməlidir. Taxıl əkiləcək sahədə keyfiyyətli şum aparılmalı, cücərmə və təmizlik faizi yüksək olan toxum tədarükü diqqətdə saxlanılmalı, toxum dərmanlanmalı, şırım üsuluna üstünlük verilməli və səpin optimal müddətdə aparılmalıdır.

Təcrübə göstərir ki, yüksək məhsuldarlığa nail olmaqda şırım üsulunun çox böyük əhəmiyyəti vardır. İlk növbədə, cücərtilərin alınması üçün torpaqlar tam nəmlənir, gölməçələr yaranmır, su itkisinə yol verilmir. Mora üsulunda bir hektar sahənin suvarılmasında 1000-1200 kubmetr su sərf olunursa, şırım üsulunda bundan az, yəni 800-900 kubmetr olur ki, bu da suya qənaət olunmasına gətirib çıxarır. Bundan başqa, bu üsul sahələrdə texnikaların rahat işləməsinə şərait yaradır.

Hava şəraitinin qeyri-sabit keçməsi nəticəsində taxıl sahələrində pas xəstəlikləri müşahidə olunubsa, həmin sahələrdə təkrar taxıl əkini keçirilməməlidir. Taxılın, əsasən, kartof, tərəvəz, bostan və sair bitkilərdən sonra əkilməsi daha məqsədəuyğundur.

Eyni sahədə iki-üç ildən artıq taxıl əkilməsi məsləhət görülmür. Çünki bir tərəfdən sahənin alaqlarla zibillənməsinə şərait yaranır, digər tərəfdən isə birtərəfli qidalanma getdiyindən torpağın münbitliyinin aşağı düşməsinə səbəb olur.

Taxıl əkiləcək sahə sələf bitkilərdən təmizlənən kimi hər hektar sahəyə imkan daxilində 20-30 ton üzvi, 250-300 kiloqram fosfor və 100-150 kiloqram kalium gübrələri veriləcək şumun aparılması həyata keçirilməlidir. Əldə olunmuş təcrübə onu göstərir ki, fosfor və kalium gübrələrinin illik normasının şum altına verilməsi məsləhətdir. Bundan başqa, az münbit torpaqlarda bitkiləri azotla normal təmin etmək məqsədilə səpin zamanı toxumla birlikdə sahəyə azot gübrəsi verilməsi məqsədəuyğundur.

Yüksək məhsul götürmək üçün tətbiq olunan aqrotexniki tədbirlər içərisində toxumun keyfiyyəti əsas yer tutur. Taxıl bitkilərindən yüksək və keyfiyyətli məhsul əldə etmək üçün bu bitkilərin toxumlarının sağlam və yüksək kondisiyalı olması təmin edilməlidir. Qeyd olunmalıdır ki, bu gün muxtar respublikada mülkiyyətçiləri toxumla təmin etmək üçün 12 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. Taxılçılıqla məşğul olan torpaq mülkiyyətçilərinin nəzərinə çatdırılır ki, payızlıq taxıl əkinlərinin keçirilməsi ilə əlaqədar keyfiyyətli toxum materialı əldə etmək üçün həmin təşkilatlara müraciət edə bilərlər. Bundan əlavə, sahibkarlar taxılın təmizlənməsi üçün "Araz" Elm-İstehsalat Birliyinin toxumçuluq təsərrüfatına, Naxçıvan Toxumçuluq Mərkəzinə və rayonlarda fəaliyyət göstərən toxumçuluq təsərrüfatlarına müraciət edə bilərlər.

Toxum materialı bir çox xəstəliklərin törədiciləri ilə yoluxa bilər. Bu xəstəliklərin təsiri nəticəsində səpin normasına düzgün əməl edilsə də, sahədən istənilən sayda və sağlam cücərti alınması mümkün olmur. Toxumla yayılan, taxıl üçün qorxulu sayılan bir çox xəstəliklərin qarşısını almaq və onlara qarşı mübarizə aparmaq üçün səpiləcək toxum materialının dərmanlanması ən vacib tədbirlərdən biridir. Bu xəstəliklərə qarşı mübarizə məqsədilə toxum təsirə malik olan tubazol (1,5 kq/ton), rubin (1,5 kq/ton), saneb (1,6 kq/ton) preparatlarının biri ilə səpinqabağı dərmanlanmalıdır.

Payızda bitkilərin xəstəliklərə tutulması, zərərvericilərlə zədələnməsi dənin yetişmə vaxtı bitkilərin sıxlığına, dənin keyfiyyətinə və məhsuldarlığına təsir göstərir. Ona görə də səpin optimal vaxtda başa çatdırılmalıdır. Optimal müddətdə səpin aparılmış sahələrdə bitkilər şaxtalar düşənə kimi kifayət qədər güclü yan köklər əmələ gətirir, möhkəmlənir və kollanır. Belə bitkilər qışın əlverişsiz şəraitinə davam gətirə bilir. Gecikmiş səpinlərdə isə cücərtilər payızda kollana bilmir və zəif halda qışlamaya başlayır. Payızda zəif kök atmış bitkilər isə qışa azdavamlı olur, onların çoxunu şaxta tələf edir və nəticədə, əkinlərdə seyrəklik əmələ gəlir.

Muxtar respublika şəraitində səpinin aran zonalar üçün oktyabrın 1-dən 30-dək, dağətəyi zonalar üçün sentyabrın 20-dən oktyabrın 20-dək qurtarması məqsədəuyğundur. Havalar səpin üçün əlverişli keçdikdə məhsulları gec toplanan bitkilərin yerində, noyabr ayında da səpin aparmaq məsləhət görülür.

Taxılın səpin norması isə sələflərindən, torpağın münbitliyindən, səpin müddətindən və üsulundan, əkiləcək sortun bioloji xüsusiyyətlərindən, toxumun təmizliyindən, mütləq çəkisindən və digər amillərdən asılı olaraq dəyişə bilər.

Səpin aşağı norma ilə aparılanda bitkilər seyrək olur, alaqların inkişafı üçün əlverişli şərait yaranır. Ona görə də belə əkinlər az məhsul verir. Səpin norması çox olduqda isə sahədə bitkilər sıx olur, bir-birini kölgələndirir, torpaqda su və qida maddələri çatışmır. Nəticədə, bitkilər seyrək və cılız dənli kiçik sünbüllər əmələ gətirir. Səpin norması bir hektara orta hesabla 230-250 kiloqram buğda, 180-200 kiloqram arpa toxumu səpilməsi məsləhətdir. Çünki əkiləcək toxumlar standartlara uyğun olmalıdır. Belə ki, 1-ci sinif üçün təmizlik faizi 99, cücərmə faizi 95, 2-ci sinif üçün təmizlik faizi 98, cücərmə faizi 92, 3-cü sinif üçün isə təmizlik faizi 97, cücərmə faizi 90 olmalıdır. Gecikmiş səpinlərdə səpin norması 10-15 faiz artırılmalıdır.

Səpin zamanı respublikanın torpaq-iqlim şəraitinə uyğun gələn "Qobustan", "Bezostaya- 1", "Fatimə", "Konya", "Əhmədağa" və "Bayraktar" buğda, "Naxçıvan dəni" və "Cəlilabad-19" arpa sortlarının əkilməsi məsləhət görülür. Səpin zamanı toxumlar torpağa elə basdırılmalıdır ki, onlar rütubət, istilik və hava ilə normal təmin oluna bilsin. Normal rütubətli və yaxşı becərilmiş torpaqlarda toxumun 5-6 santimetr dərinlikdə basdırılması məsləhətdir.

Nəzərə almaq lazımdır ki, toxum torpağa dayaz basdırılarsa taxılın kök sistemi torpaqla zəif əlaqədə olur və taxıllarda kök yatması baş verir və gələcəkdə böyük məhsul itkisinə səbəb olur. Səpin qurtaran kimi həmin sahədə mora və ya şırım açılaraq suvarmaq lazımdır. Taxıl bitkilərinin suvarılmasında əsas üsullardan biri şırımlarla suvarmadır. Bu üsul tətbiq edildikdə torpaq yaxşı rütubətlənir, qaysaq əmələ gəlmir, torpağın strukturu yaxşı saxlanılır, su itkisi olmur, əl əməyindən az istifadə edilir, mora üsuluna nisbətən şırım üsulunda torpaq tam doyduğundan quraqlığa qarşı davamlı olur.

*Taxıl səpini vaxtında və göstərilən aqrotexniki qaydalara uyğun aparılarsa, gələn təsərrüfat ilində yüksək məhsuldarlığa nail ola bilərik.*

**Xaliq ABBASOV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri***

## Aqrar sahənin inkişafı diqqətdə saxlanılıb

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi iyul ayında da fəaliyyətini qəbul olunmuş müvafiq Dövlət proqramlarının və nazirliyin illik iş planının icrası istiqamətində qurub.

Ötən ay taxıl biçininin gedişi zamanı nazirlikdə yaradılmış operativ qərargah vasitəsilə biçinin gedişinə nəzarət edilib. Nazirlik əməkdaşları tərəfindən torpaqların münbitliyinin qorunub saxlanılmasında, yağlı bitkilərin əkilib-becərilməsində və təkrar əkinlərin aparılmasında müasir texnikaların rolu, kənd təsərrüfatında innovativ texnologiyaların tətbiqinə nail olunması istiqamətində mexanizatorlar, sahibkarlar və ailə təsərrüfatı üzvləri ilə maarifləndirici görüşlər keçirilib. Mütəxəssislər tərəfindən taxıl biçinindən sonra təkrar əkinlərin aparılması, təkrar əkinlərin aparılmasında xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirləri, bitki yağı üçün əkilmiş qarğıdalı və günəbaxan bitkilərinə aqrotexniki qaydalara uyğun qulluq edilməsi, bostan-tərəvəz bitkilərində, meyvə və üzüm bağlarında xəstəlik və zərərvericilərə qarşı mübarizə aparılması üçün təsərrüfat sahiblərinin iştirakı ilə tarla seminar-müşavirələri keçirilib.

Ötən ay "Araz" Elm-İstehsalat Birliyinin elmi şurasının iclası keçirilib, aparılan elmi-tədqiqat və təsərrüfat işlərinin gedişi müzakirə olunub və müvafiq tapşırıqlar verilib. Birliyin əməkdaşları tərəfindən hazırlanmış 4 elmi məqalə nəşr olunmuş, 3 elmi məqalə nəşr olunmaq üçün göndərilmişdir. Aqrokimya, torpaqşünaslıq və torpaqların kütləvi analizləri şöbəsinin əməkdaşları tərəfindən mülkiyyətçilərin 2 ədəd torpaq nümunəsi analiz olunaraq tərkibindəki qida maddələrinin miqdarına uyğun gübrə normaları hesablanıb, mülkiyyətçilərə yazılı məlumat verilib.

Bitki sortlarının seleksiyası, mühafizəsi, sınağı və toxumçuluq şöbəsinin əməkdaşları tərəfindən seleksiya və artırma pitomniklərində əkilmiş 55 ədəd buğda sort və hibridləri, 44 ədəd sınaq üçün əkilmiş buğda və arpa sortları biçilib, dərzlənib, döyülərək nəticələrin araşdırılması aparılacaqdır.

Hesabat dövründə Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin mütəxəssisləri fermerlər, torpaq mülkiyyətçiləri və ailə təsərrüfatı sahibləri ilə görüşlər keçirib, üzüm və meyvə bağlarında xəstəlik və zərərvericilərin aşkarlanması məqsədilə idarəyə müraciət edən 43 təsərrüfat sahibinə xəstəlik və zərərvericilərə qarşı tələb olunan mübarizə tədbirləri haqqında ətraflı məlumat verilib. Heyvandarlıqda mal-qaranın inkişaf etdirilməsi, onlara zoobaytar qaydalara uyğun qulluq edilməsi və cins tərkibinin yaxşılaşdırılması, qızdırma xəstəliyinə qarşı profilaktik və müalicəvi tədbirlərin aparılması, arı ailələrinin mərhələli şəkildə köçürülməsi və xəstəliklərinə qarşı profilaktik tədbirlərin aparılması istiqamətində maarifləndirmə tədbirləri davam etdirilib.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Naxçıvanda yeni istehsal sahəsi fəaliyyətə başlayıb



Muxtar respublikanın sosial-iqtisadi inkişaf tarixinə "Sənaye ili" kimi yaddaqalan uğurlarla yazılacaq 2022-ci ildə iqtisadiyyatın bu aparıcı sahəsi xüsusilə diqqətdə saxlanılır. Bu ilin ilk yarısında Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına sənayeyönümlü 15 layihəyə 4 milyon 903 min manat kredit verilmişdir. Sahibkarlığın inkişafını daha da sürətləndirmək və bu sahədə fəaliyyətə mane olan əsassız müdaxilələrin qarşısını almaq məqsədilə cari ilin ilk yarısında xüsusi fəaliyyət növləri üzrə 144 icazə, 691 lisenziya verilmişdir. Bütün bunlar muxtar respublikada sənaye sahəsində rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalının təşviqinə, innovasiyalara əsaslanan yeni müəssisələrin qurulmasına, yeni məhsul növlərinin istehsalına şərait yaratmışdır. Yaradılan yeni istehsal sahələrindən biri də Naxçıvan şəhərində "Saf Metal" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaat və kənd təsərrüfatında istifadə olunan əl arabaları istehsalıdır.

Naxçıvan şəhərinin Şəhriyar küçəsində yerləşən "Saf Metal" Məhdud Məsuliyyətli Cəmiyyəti 2019-cu ildən metal məhsullarının istehsal sahəsi kimi fəaliyyət göstərir. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən yerli istehsalın təşviqi məqsədilə müəssisəyə 56 min 500 manat dövlət dəstəyi göstərilib, həmçinin müəssisə daha uyğun istehsal yeri ilə təmin olunub. Fəaliyyətini daha da genişləndirən müəssisədə bu ilin iyun ayından etibarən inşaat və kənd təsərrüfatı işlərində tələbatı çox olan əl arabalarının istehsalına da başlanılıb. Burada 10 nəfər daimi işlə təmin olunub. Müəssisə gündəlik 40-45 ədəd əl arabası istehsal etmək gücündədir.

"Saf Metal" Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal etdiyi əl arabaları Türkiyənin yüksəkkeyfiyyətli məhsullarından istifadə edilərək yığılır. Müasir avadanlıqların istehsal prosesindən keçən əl arabaları keyfiyyəti ilə seçilir və uzunömürlüdür.

Yaxın zamanda müəssisədə inşaat və kənd təsərrüfatı işlərində istifadə edilən digər alətlərin də istehsalı nəzərdə tutulur.

**Xəbərlər şöbəsi**

***Vətənə məhəbbət, torpağa sevgi toxumu səpir şüurlara, dövlətçiliyə sədaqət amalı aşılayır, vətənpərvərliyə, birliyə, bərabərliyə, dostluğa, qardaşlığa, türkçülüyə çağırış edir hər sözün, hər kəlmən, hər misran, ey böyük istiqlalçı şair, dəyərli publisist, qələmi iti, sözü kəsərli jurnalistimiz Əhməd Cavad. Könlümüzdə mənəviyyat Günəşi tək doğan, damarlarımızda iftixar bulağı kimi qaynayan, dinlədikcə milli ruhumuzu qürurla etizaza gətirən dövlət himnimizin sözlərinə diqqət etmək yetərlidir ki, duyub, hiss edə biləsən sənin böyük ürəyindən süzülüb gələn sonsuz saf, təmiz arzunu, istəyini, ali məqsədini, müqəddəs məramını. "Soranlara, mən bu yurdun, anlatayım nəsiyəm" söyləyərək, bu yurd, bu torpaq, Azərbaycan, türk eli üçün kim olduğunu göstərdin, öz sonunu deyil, mübarək amallara söykənən dönməz əqidənin sonsuzluğunu düşünərək, insanların qəlbində istiqlal çırağını şöləndirmək naminə çıxdın o dövrdə çoxlarının cəsarət edə bilmədiyi "boranlı", "qarlı" mübarək bir yola. "Bulud nə qədər qatı olsa da, Günəşin qarşısında uzun müddət davam gətirə bilməz" həqiqəti təcəlla etdi sənin 45 illik ömrünə, dəyanətli, qətiyyətli həyat yoluna, yaradıcılıq dünyana sığdıra bildiyin, zaman ötdükcə dəyəri artan əməllərində...***

*Əhməd Cavad – 130*

## Ruhumuzu riqqətə gətirən kəlmələrin müəllifi, *130 yaşlı istiqlal Günəşi...*



Yüzlərlə insanın "Mən türkəm, qanımda türk qanı axır" söyləyərək istiqlal mücadiləsi etməsinə vəsilə olmaq, qardaş xalqları birliyə səsləyib, yuxuya dalan gözləri açdırmaq üçün Uca Yaradan 1892-ci il may ayının 5-də Şəmkir rayonunun Seyfəli kəndində, ruhani ailəsində dünyaya açdırdı gözünü sənin. Kənd məktəbini müvəffəqiyyətlə oxuyub bitirdikdən sonra təhsilini Gəncədə müsəlman ruhani seminariyasında davam etdirdin, burada dövrün bir sıra tanınmış şair, yazıçıları, filosof-alimləri kimi qarşına məqsəd qoyub mükəmməl şəkildə öyrəndin rus, ərəb, fars dillərini. Müəllimlərinsə görkəmli mütəfəkkirlər Hüseyn Cavid və Abdulla Sur oldu. Bu məqamda xatırlatmaq yerinə düşür ümummilli liderimiz Heydər Əliyevin ***"Mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir..."*** dəyərli fikirlərini. Bəli, milli ideyanı, türkçülüyü, Azərbaycançılığı həyat amalına çevirən Hüseyn Cavid kimi böyük yazıçının tələbəsi olmağın, türk xalqlarının düşdüyü vəziyyət, gələcəyi barədə mütəmadi şəkildə müəllimlərinlə apardığın milli-mənəvi ruhlu söhbətlərin az rolu olmadı sənin əqidənin sağlam, mövqeyinin düzgün formalaşmasında, istiqlal yolunda bütün mənliyinlə mücadilə aparmağında...

1910-cu ildən mənəviyyat xəzinəsi sayılan ədəbiyyata könül verdin, lirik şeirlərlə görüşünə gəldin minlərlə oxucunun, həyatdakı amalın jurnalistikaya da yönəltdi səni, müxtəlif qəzet və jurnallarda nəşr olundu dövrün eybəcərliklərini gün üzünə çıxaran tənqidi məqalələrin, könülləri oxşadı publisistik yazıların. Birinci Dünya müharibəsinin başlanması həm də qəlbində fırtına kimi çağlayan istiqlaliyyət ruhunu, vətənpərvərlik xarakterini daha bariz şəkildə çıxartdı ortaya. Şair, pedaqoq Abdulla Şaiqlə birlikdə könüllü əsgər kimi İstanbulda qurulan "Qafqaz könüllü hissəsi" sıralarına qatıldın, "Olsun bizim bütün ellər qurban Türkün bayrağına" deyərək qardaşlarının köməyinə yetişdin, türklərlə Balkan hərbində iştirak edib, Şərq cəbhəsində ermənilərə qarşı qətiyyətlə vuruşdun. Rus ordusunun işğalı altında olan Qars və Ərzurum əhalisi rus, erməni dəstələri tərəfindən qırğına məruz qalanda buna biganə qalmayanlar sırasında öndə dayanmışdın. Bakıda yerləşən Azərbaycan Xeyriyyə Cəmiyyəti vasitəsilə Türkiyənin şərq vilayətlərindəki əhaliyə yardım edənlərdən oldun, qardaş xalqın ağır günündə dərhal üz tutdun onlara sarı, Qarsda qarşılaşdığın mənzərəni ürəyin parçalana-parçalana gətirdin dilə: "Getdim gördüm dost elində, nə bir səs var, nə bir layla". 1918-ci ildə türk ordusu qardaş Azərbaycanın istiqlalına köməyə gələndə sən də "Atıldı dağlardan zəfər topları, yürüdü irəli əsgər bismillah", – deyərək azərbaycanlı və türk əsgər yoldaşlarınla Bakının Yasamal dağındakı səngərlərdə düşmənlə vuruşdun. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını böyük şövqlə, rəğbət hissi ilə qarşıladın, dövlətimizin himnini – "Azərbaycan marşı"nı yazaraq tarixə əbədi olaraq həkk etdirdin adını, xalqının mübarizə əzmini ifadə edib, təfəkkür manifestini yaratdın, yaradıcılığının möhürünü vurdun. "Üç rəngin əksini Quzğun dənizdən ərməğan yollasın sana, bayrağım!" sözlərinlə vəsf etdiyin dəyərli sevdalın daha pünhanda deyil, dövlət bayrağımız bu gün ən ali zirvədə dalğalanır, ruhun şad olsun...

İnqilabdan əvvəl və sovet hakimiyyətinin ilk illərində Gəncədə, Hacıkənddə, Quba rayonunun kənd məktəblərində müəllimlik edərək yüzlərlə azərbaycanlı balaların gələcəyinə, həyat yoluna çıraq tutdun, 1926-cı ildə Ali Pedaqoji İnstitutu bitirdin, 1928-ci ildə məşhur "İstiqlal uğrunda şeirlər" kitabını İstanbulda çıxarmağa nail oldun. Ədəbiyyat cəmiyyətinin katibi (1924-1926), Kənd Təsərrüfatı Texnikumunun müəllimi (1929), Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun dosenti (1927-1934), həmin institutun dilçilik kafedrasının rəhbəri (1934-1935) vəzifələrində çalışdın. 1935-ci ildə Gəncədən Bakıya qayıdıb "Azərnəşr"də fəaliyyətə başlamağınla həyat yolunun üzərini qara buludlar, gözügötürməyən nakəslərin min cür hiylə ilə qurduğu keçilməz sədlər tutdu. Bütün zərbələrə, təzyiqlərə,Yazıçılar İttifaqının plenumlarında kəskin tənqidlərə qarşı mərdliklə dözdün, əyilmədin, əqidəndən geri dönmədin, əleyhdarlarının adi ədəbi faktlara kəskin siyasi don geydirmələrinə təmkinlə yanaşdın. Ancaq təəssüf ki, iftira kampaniyaları öz nəticəsini verdi. 1937-ci il iyunun 3-də Yazıçılar İttifaqının üzvlüyündən çıxarıb, beş gün sonra həbs etdilər səni, xalqının azadlığı, istiqlaliyyəti, xoşbəxt gələcəyi uğrunda mübarizə apardığınçün "xalq düşməni" damğası vuruldu adına. Evində axtarışların aparılması, mənzilindən əmlakını, həyat yoldaşın Şükriyyə xanımın daş-qaşını, bəzək əşyalarını müsadirə etmələri isə tarix qarşısında heç vaxt bağışlanmayacaq ən ağır cinayət kimi yazıldı tarixin qara səhifələrinə... 1937-ci il oktyabrın 13-də İstiqlal Günəşi qürub etsə də, parlaqlığından güc alan yeni ulduzlar doğaraq bu eli, bu torpağı aydınlığa çıxardı...

Ey böyük istiqlalçı şairimiz, tufanlar, fırtınalar ancaq kökü dayazda olan cavan fidanları qoparar, qocaman çinar ağaclarını yerindən çıxarmağa gücü yetməz heç bir qasırğanın. Ümummilli liderimiz Heydər Əliyevin söylədiyi kimi: ***"Tarix həmişə hər şeyi öz yerinə qoyur".*** Vətənə sədaqət andı ilə ilhamlanan, bayrağa sonsuz məhəbbətlə sevdalanan o böyük qəlbindən süzülüb gələn, xalqımızın köksündə əbədi kök salan türkçülüyə, qardaşlığa, istiqlaliyyətə səsləyən əməllərin yüzilliklərə bərabər çinar ağacı kimi dözüm və dəyanətlə dayandı, qol-budağı əyilsə də, kökündən çıxarmaq mümkün olmadı mənəviyyat çinarını. İllər sonra tarix öz qiymətini verdi, 1955-ci ilin dekabrında ailən bəraət aldı. 1958-ci ildə "Şeirlər", 1961-ci ildə "Sən ağlama, mən ağlaram" kitabların çap olundu, dilimizə tərcümə etdiyin 1961-ci ildə Fransua Rablenin "Qarqantua və Pantaqruel", 1962-ci ildə Vilyam Şekspirin "Otello", "Romeo və Cülyetta", 1978-ci ildə Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" əsərləri işıq üzü gördü...

Həyatın qısa olsa da, ədəbiyyatımızın, mənəviyyatımızın zənginləşməsi yönündə gördüyün işlər o qədər çoxşaxəlidir ki, haradan başlayıb harada bitirəcəyini təxmin belə edə bilmirsən. Milli tarix, fəlsəfə və mənəviyyatla bağlı elə bir motiv tapılmaz ki, ona toxunmayasan, vətənpərvərlik, Vətənə bağlılıq həyatının hər dönəmində əsl ideya bayraqdarın olub, dövlətçiliyimizin əsas rəmzi sayılan üçrəngli bayrağa aid altı nəğmə yazmısan. "Baxaq dilimizə nələr görünür: Oxuyub-anlamaq yazmaqdan gücdür" söyləyərək dilimizin saflığını hər şeydən üstün tutmağın vacibliyini aşılamısan, əlifbaya poeziya həsr edib, görkəmli dramaturq Cəfər Cabbarlı ilə birgə latın əlifbasını müdafiə edən iki ziyalıdan biri olmusan, neçə-neçə şeirlər kitabın işıq üzü görüb, tənqidi, publisistik məqalələrin yol göstərib gənclərə, yaşlılara. "Çırpınırdın Qara dəniz" şeirin bu gün də türk dövlətlərini birliyə, bərabərliyə səsləyən istiqlal himni kimi dillərdə dastana dönüb, Azərbaycan və Türkiyənin qardaşlıq münasibətləri "Dost elindən əsən yellər, Bana şeir, salam söylər" sözlərinin əməldə təcəllasına çevrilib. Müəllifi olduğun dövlət himnini yaddaşına həkk edən mübariz Azərbaycan əsgəri hüququndan keçib, "Sənə hər an can qurban, sənə min bir məhəbbət" söyləyərək müqəddəs torpaqların azadlığı yolunda, əzəli yurdumuzun gülüstana dönməsi naminə şəhid, qazi, qalib olaraq 44 günə Qarabağımıza qovuşdurdu bizləri, şənini vəsf etməkdən doymadığın üçrəngli dövlət bayrağımız bu gün Şuşada, Laçında, Xocavənddə dalğalanır...

***"Azərbaycanın gözəl himni var. Sevindirici haldır ki, bu himn hələ 1918-ci ildə yazılıb. Bunun müəllifi bizim böyük bəstəkarımız Üzeyir Hacıbəyovdur. Himnin sözlərini böyük şairimiz Əhməd Cavad yazıb. Onun musiqisi də çox gözəldir, sözləri də çox mənalıdır, gözəldir",*** *– deyən ümummilli liderimiz ən yüksək qiyməti verib yaradıcılığına. Ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təsdiq etdiyi "Tədbirlər Planı" ilə 130 illik yubileyin ən yüksək şəkildə qeyd olunur ölkəmizin hər yerində, qədim Naxçıvan diyarında. Nə qədər ki müzəffər xalqımız, ulu öndər ideyalarından güc alan qüdrətli Azərbaycan dövləti var, ən yüksək kürsülərdə səslənəcək dövlət himnimiz, ən uca zirvələri fəth edəcək üçrəngli bayrağımızla birgə daim xatırlanacaq, əbədi olaraq yaşayacaqsan, ey 130 yaşlı istiqlal Günəşimiz Əhməd Cavad, sadalaya bildiyim və bilmədiyim bütün dəyərli ithaflarınçün ruhuna dərin hörmət və ehtiramla...*

✍ **Nail ƏSGƏROV**

*İyul ayında Dövlət İmtahan Mərkəzi tərəfindən muxtar respublikada müxtəlif istiqamətlər üzrə elan olunmuş müsabiqələrə sənəd qəbulu, eyni zamanda dövlət qulluğuna dair qanunvericiliyin tətbiqinə nəzarət davam etdirilib.*

## 8 istiqamət üzrə işə qəbul üçün sənəd qəbulu davam etdirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" Sərəncamının icrasının təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin əməkdaşları və könüllülərdən ibarət səyyar xidmət qrupu tərəfindən 15-18 iyul tarixlərdə Şərur və Ordubad Rayon Təhsil şöbələrinin inzibati binasında bu rayonlarda yaşayan 118 namizədə səyyar xidmət göstərilib. Onu da qeyd edək ki, rayonlarda həyata keçirilən səyyar xidmət layihəsinin məqsədi vaxt və maliyyə itkisinin qarşısının alınması, rayonlarda yaşayan, elektron xidmətlərdən istifadə etməkdə çətinlik çəkən, Dövlət İmtahan Mərkəzinin inzibati binasına gələ bilməyən vətəndaşlara səyyar elektron xidmət göstərmək olub.

İyul ayı ərzində Dövlət İmtahan Mərkəzi tərəfindən "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyəti, dövlət ümumtəhsil müəssisələrində, Naxçıvan Musiqi Kollecində, AMEA Naxçıvan Bölməsində, dövlət qulluğu üzrə inzibati vəzifələrin 5-7-ci təsnifatına, Səhiyyə Nazirliyinin tabeliyindəki müəssisələrdə, Mədəniyyət Nazirliyinin tabeliyindəki müəssisələrdə və dövlət musiqi təhsili müəssisələrində, ümumilikdə, 1213 vakant vəzifənin tutulması üçün müsabiqələrə sənəd qəbulu davam etdirilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

## Teleradioların yaradıcılıq işi təkmilləşdirilir

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası tərəfindən 2022-ci ilin iyul ayında muxtar respublikada fəaliyyət göstərən teleradioların monitorinqi aparılmış, fəaliyyətləri təhlil edilmiş, müəyyən nöqsanlar qeydə alınmışdır. Müşahidə edilən çatışmazlıqlar operativ şəkildə teleradiolara bildirilmiş və aradan qaldırılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərman və sərəncamlarının, qəbul edilmiş Dövlət proqramlarının icrası teleradioların efirində operativ şəkildə işıqlandırılmışdır.

Hesabat dövründə Naxçıvan televiziyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirak etdiyi tədbirlərə həsr olunmuş 2 telematerial hazırlanmışdır.

İyul ayında televiziyada Dövlət proqramlarının icrası istər xəbər süjetləri, istərsə də verilişlər vasitəsilə işıqlandırılmışdır. İyulun 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə taxılçılığın inkişafı ilə bağlı müşavirə, iyulun 16-da altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyası keçirilmişdir. Növbəti günlərdə həm sessiyadan, həm də taxılçılıqla bağlı müşavirədən irəli gələn məsələlərlə bağlı mərkəzi icra hakimiyyəti orqanlarında kollegiya iclasları, şəhər və rayonlarda isə taxılçılığın inkişafı ilə bağlı müşavirələr keçirilmişdir. Kollegiya iclasları və müşavirələr Naxçıvan televiziyasında mütəmadi olaraq yayımlanmışdır.

İyul ayında verilişlərin növbəti 90 sayı efirə təqdim olunmuşdur. Televiziya muxtar respublikamızın müvafiq qurumları ilə səmərəli əməkdaşlıq əlaqələri yaratmış, müvafiq qurumların mətbuat xidmətləri və əməkdaşlarının iştirakı ilə veriliş və proqramlar yayımlanmış, təşkilatların fəaliyyətini, həmçinin rayon və kəndlərimizin sosial mənzərəsini əks etdirən xəbər materialları efirə təqdim edilmişdir.

Naxçıvan radiosu bəhs edilən dövrdə 487 saat efirdə olmuşdur. Ümumi efirin 42 faizi radionun öz istehsalı olan verilişlər, canlı proqramlar, xəbər buraxılışları, audioçarxlar, 58 faizi isə konsert proqramları və digər hazır materiallardan ibarət olmuşdur. Ümumilikdə, ay ərzində 93 veriliş və canlı proqram, 352 konsert proqramı təqdim edilmişdir. Həmin verilişlər muxtar respublikanın ictimai-siyasi, sosial-iqtisadi həyatında baş verən yeniliklər, ədəbi-bədii, xüsusi günlər, gənclik-idman, uşaqlar, səhiyyə, təhsil, hüquqi maarifləndirmə və digər mövzularla bağlı olmuşdur. İyul ayında Naxçıvan radiosunda yeni layihə – "Bir ocağın işığında" proqramı təqdim edilmişdir.

Şura tərəfindən "Kanal 35" televiziyasının efirinə nəzarət edilmişdir. Şura öz işini televiziyanın yaradıcı və texniki əməkdaşlarına yaradıcı dəstək şəraitində təşkil etmişdir. Hər ay olduğu kimi, iyul ayında da müşahidə edilən bəzi çatışmazlıq televiziyaya bildirilmiş, yaradıcı işlə bağlı təkliflər diqqətə çatdırılmışdır. Qeyd edək ki, "Kanal 35" televiziyasının yayım vaxtında dəyişiklik edilmişdir. İyul ayının 5-dən etibarən televiziya saat $14^{00}$-da efir fəaliyyətinə başlayıb, saat $22^{00}$-da isə yayımını dayandırır.

Bəhs edilən dövrdə "Naxçıvanın səsi" radiosu 488 saat efirdə olmuş və efir müddətinin 102 saatını canlı yayım proqramları təşkil etmişdir. Ümumilikdə, ay ərzində canlı proqram və verilişlər efirin 24,3 faizini təşkil etmişdir. Ay ərzində radio iki xüsusi verilişlə dinləyicilərin qonağı olmuşdur.

Naxçıvan Dövlət Universitetinin televiziyası və "Nuhçıxan" radiosu iyul ayında 5 gün yayımlanmış, 2022-ci il tarixdə dərs ilinin ikinci yarısı bitdiyindən televiziyanın yayımı muxtar respublika ərazisində müvəqqəti olaraq dayandırılmışdır. "Kanal 35" televiziyasındakı yayım vaxtında dəyişikliklə əlaqədar olaraq eyni paraleldə yayımlanan Universitet televiziyası saat $10^{00}$-da efirə başlamış, saat $13^{30}$-da efir yayımını yekunlaşdırmışdır.

Hesabat dövründə şura tərəfindən Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi, elm, təhsil və mədəniyyət sahələrində əldə edilən nailiyyətlər, burada aparılan infrastruktur quruculuğu ilə bağlı mərkəzi mətbuat orqanları üçün 2-si Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətinin, 21-i digər mətbuat xidmətlərinin materialları olmaqla, 61 xəbər, 2 müsahibə, 2 analitik material, 3 fotoreportaj, 2 reportaj, ümumilikdə, 342 şəkillə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası tərəfindən 2022-ci ilin iyul ayı ərzində sosial şəbəkələrdə 292 linkdə 364 şəkil, video və xəbər paylaşılmışdır.

***Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası***

*İnsan yaranışdan musiqi ilə doğulub. Kim bilir, bəlkə də, bəşər övladı bu dünyaya qovuşduğu üçün oxuyub. Və ilk ibtidai insanların da bir-birinə müraciəti də elə avazla, musiqi ilə olub. Söhbət Üzeyir bəy, Bethoven musiqisindən deyil, musiqinin böyüklüyündən, əzəmətindən gedir. Dünya şöhrətli Bethoven özünün yeganə operasına dirijorluq etdiyi zaman orkestrin səsini eşitmədiyi üçün (eşitmə problemi yarandığına görə) dirijor çubuğunu iki yerə bölmüş və saray əyanlarının dəvət olunduğu salonun səhnəsini tərk etmişdi. Budur musiqinin cazibəsi, sehri. Budur musiqinin insanı insan etmək qüdrəti. Musiqinin dili yoxdur, musiqinin vətəni yoxdur, musiqi sərhəd tanımır, musiqi Yer kürəsinin paralellərini, meridianlarını vecinə almır, anamız Yer kürəsini dolaşır, hər evə, hər kəsin ürəyinə istək, sevgi gətirir, sanki deyir ki, ey insanlar, sülhə, barışığa gəlin, mehriban olun, bir-birinizin əlindən möhkəm tutun, qoymayın bu dünyanı yıxılmağa, axı biz insanıq. Budur musiqinin möhtəşəmliyi.*

## Naxçıvandakı musiqi məktəbləri maraqlı tarixi və özünəməxsus ənənələri ilə seçilir



Əgər musiqi təhsilin yoxdursa, bu o demək deyildir ki, musiqini başa düşmürsən. Əksinə, musiqi hər kəsin duya və dəyərləndirə biləcəyi, ürəyə, beyinə, insan zəkasına mehriban olan bir vasitədir. Amma musiqi təhsili bir başqa aləmdir və elə ki o yeddi notun sehrinə düşdün, ömrün boyu o sehrdən, o çevrədən çıxa bilməzsən. Və bu yeddi səsi də musiqi məktəbləri öyrədir. Do, re, mi, fa, sol, lya, si, sonra tərsinə.

Hər yurdun, hər bölgənin öz adət-ənənəsi var və musiqi sahəsində Naxçıvanı Qarabağımızla müqayisə etmək istəmirəm. Qarabağ musiqi diyarıdır, Qarabağ müğənnilər məkanıdır, Bülbülün, Xan əminin, Seyid Şuşinskinin adlarını çəkmək bəsdir.

Qeyd edək ki, naxçıvanlılar da musiqisevərdirlər və onların musiqi dəsgahı olardı üçlük (trio) – tar, kaman, qaval. Bu qədim Azərbaycan musiqi alətləri ilə el şənlikləri, toylar yola salınardı. Naxçıvan şəhərinin mərkəzində qədim Zaviyə məscidinin binasında yerləşən, sovetlər dönəmində Almaniya Kommunist Partiyası liderinin adı verilmiş Telman klubunda musiqi dərnəyi yaradılmışdı. Həmin dərnəyin tar məşğələsinə mərhum Səfər Rəcəbov müəllimlik edirmiş. Öyrəndiyimizə görə, çox yaxşı tar ifaçısı imiş, toylarda qaval (dəf) ifa edərmiş, amma ən faciəli tərəfi onda idi ki, o, görmə əngəlli şəxs idi. Səfər Rəcəbov haqqında mərhum yazıçı-publisist – atam Nurəddin Babayevin bir kiçik xatirəsi: 9-10 yaşında olarkən qonşu uşağın köhnə tarını alıb qaçır Səfər müəllimin yanına ki, mən də tar ifa etməyi öyrənmək istəyirəm. Səfər müəllim, təbii ki, gələnin neçə yaşda, tarının nə vəziyyətdə olmasını görmür və həmin uşağa deyir ki, aşağı sümüyə bir mizrab vur. Sən demə, bu tarın sümüyü-filanı yoxmuş, olmağına olubmuş, amma tar sahibi uşaqlığına salıb bunu lazımsız bir şey hesab edib çıxarıb atıbmış. Atam ürəyi istəyən bir pərdəyə barmağını dayayıb simə bir mizrab vurub və Səfər müəllim deyib ki, iki pərdə qaldır yuxarı. O, iki pərdə yuxarını da tapıb və təzədən simə bir mizrab vurub. Sonra Səfər müəllim deyib ki, yuxarı sümüyə bir mizrab vur və o vaxt atam nə illah eliyibsə, sümük-filan tapa bilməyib, sadəcə olaraq hansı pərdə gəldisə, ora bir mizrab ilişdirib. Və onda Səfər müəllim deyib ki, bala, sənin musiqi qabiliyyətin yoxdur, mənim də zehnimi korlama. Bununla da atamın tar ifa etmək həvəsinə nöqtə qoyulub. Xülasə, mətləbdən kənara çıxmayaq, qayıdaq yenə həmin musiqi məktəblərimizin ən ibtidai forması olan ilk musiqi dərnəyinə. O vaxtlar, demək olar ki, muxtar respublikanın heç bir rayonunda, kəndində musiqi məktəbi yox idi. Və yavaş-yavaş musiqi məktəbləri yarandıqca evlərdə, həyətlərdə, bağ-bağçalarda tar, kaman, qaval səslənməyə başladı. Çünki o vədələr ata-babalarımızın royal, fortepiano, gitara, simli, simsiz, nəfəsli alətlər haqqında təsəvvürləri belə yox idi, amma dünya gör-götür dünyasıdır. Naxçıvanın musiqi məktəblərində də tədricən dünya musiqisinə maraq göstərilməyə başlanmışdı. Muxtar respublikada fəaliyyət göstərən həmin musiqi məktəbləri haqqında ətraflı məlumat verəcəyik, lakin Naxçıvan şəhərinin mərkəzində görkəmli fırça ustası Bəhruz Kəngərli Muzeyindəki darısqal otaqlarda yerləşən musiqi məktəbi haqqında bir qədər ətraflı danışmaq istəyirəm. Musiqi məktəbi dahi bəstəkarımız Üzeyir Hacıbəyovun təşəbbüsü və Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə 1937-ci ildə yaradılmışdı. Üzeyir bəy məktəbin işinin təşkili, buraya ixtisaslı müəllimlərin göndərilməsi ilə əlaqədar əlindən gələn köməyi edirdi. Burada əsas diqqət milli musiqi alətlərimiz olan tar və kamançanın öyrənilməsinə verilirdi. Qısa müddətdən sonra bu sıraya fortepiano da əlavə edildi, növbəti ildə isə nəfəsli alət olan truba şöbəsi yaradıldı.



Məktəbin ilk qəbulu 80 nəfərdən ibarət idi. Muxtar respublikanın özündə olan ixtisaslı musiqiçi kadrlarla yanaşı, Bakıdan və Gəncədən də məktəbə müəllimlər dəvət olunmuşdu. Təzliklə məktəbin şagirdlərinin sayı bir neçə dəfə artmağa başladı. Tar, kamança ilə yanaşı, klarnet, akkordeon, skripka, fortepiano sinifləri də yaradıldı. Burada bir haşiyə çıxmaq istəyirəm. Üzeyir bəy məktəbin açılışı münasibətilə məktəbə alman istehsalı olan fortepiano bağışlayır. Amma bu pianonun aqibəti bəlli olmur. Nə qədər araşdırdıqsa, heç bir nəticə əldə edə bilmədik. Çox heyiflər olsun ki, böyük bəstəkarın o cür hədiyyəsinin aqibəti bilinmədi. Bu məktəbdə şagirdlərə sonralar Məmməd Ələkbərov, Azər Abbasov, Lyudmila Parxomenko, habelə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbini bitirmiş istedadlı musiqiçilər – Sevil Qasımova, Yuliya Vorontsova, Əqidə Ələkbərova Azərbaycan və dünya musiqisi korifeylərinin əsərlərini öyrədirlər. Bu məktəbi bitirənlərdən bir neçə nəfərin adlarını fəxrlə çəkmək istəyirəm ki, onlar milli musiqimizin, xüsusilə onun mahnı janrının inkişafında əvəzsiz rol oynayıblar və bu gün də onların sənət aləmində irs qoyduğu musiqi əsərləri gənc musiqiçilərin yaradıcılığında mayaka çevrilmişdir. Onlar görkəmli bəstəkarlarımız Ramiz Mirişli və Nəriman Məmmədovdur. Buraya müğənni Yaşar Səfərovun da adını əlavə etmək istərdik. Bəstəkar və Naxçıvan musiqisinin gözəl tədqiqatçısı Nazim Quliyevin “Naxçıvan musiqi mədəniyyəti tarixindən” kitabı dünənimizin musiqi xəzinəsini araşdırmaqda əvəzsiz kömək edə biləcək bir xəzinədir. Bəs bu günümüz?

Bu gün Naxçıvanda musiqinin, incəsənətin inkişafı üçün çox geniş perspektivlər açılmaqdadır. Kənd və qəsəbələrimizdə nə qədər yeni, müasir tələblərə cavab verən musiqi məktəbləri tikilib istifadəyə verilib.

Bəs Naxçıvanda musiqi məktəblərinin yaradılması barədə əsl həqiqəti necə öyrənmək olar? Nə yaxşı ki, bütün dünyada arxiv deyilən bir əvəzsiz xəzinə var və bu xəzinə yüz illərdən üzübəri gələn həqiqətləri müasir dünyamıza çatdırır. Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivindən belə bir sənəd tapdım. Sənəd o zamanın hökmünə uyğun olaraq rus dilində yazılıb, ana dilimizə tərcüməsi belədir:



ПОСТАНОВЛЕНИЕ
президиума Нах. ЦИК"а от 23/VIII-37г.
О создании в Нахичеванской ССР музыкальной школы.
( т.т. Махмудов и Сафаров )
Президиум ЦИК"а Нах.АССР постановляет:
1. Создать в Нах.ССР Музыкальную школу.
2. Утвердить контингент приема в Музыкальную школу на 1937/38г. учебный год в 80 человек с разверсткой по р-нам Нах.Республики в следующем порядке:
а) Ордубатский район – 10 человек
б) Норашенский " – 10 –"–
в) Шахбузский " – 5 –"–
г) Абракунисский " – 5 –"–
д) Джульфинский " – 3 –"–
е) Город Нахич. " – 47 –"–
3. На 1937/38 учебный год при музыкальной школе иметь классы по следующим специальностям:
а) Т а р а
б) Кеманча
в) Р о я л ь
г) класс игры на духовых инструментах (гобой, фагот, труба, валторна, тромбон и т.д.)
е) теоретические дисциплины
4. [illegible] Наркомкоммунхозу т. [illegible] не позднее 1/IX- представить в распоряжение музыкальной школы помещение под общежитие на 40 человек.
5. Временное исполнение обязанности Директора Музыкальной Школы возложить на тов. Гусейн Баги. (инспектор Комитета искусств)
6. Поручить тов. Махмудову и представителю Управления по делам искусства при СНК Аз.ССР тов. Сафарову к 1/IX-с.г. подыскать Зав. учебной частью (специалиста) и обеспечить контингент приема требуемым количеством инструментов.
7. В виду расхождения сметных ассигнований с утвержденным контингентом учащихся на 1937/38 учебный год, поручить тов. Махмудову и Сафарову уточнить смету в Управлении по делам искусств при СНК Аз.ССР, обратив внимание на увеличение ассигнований в части приобретения инструментов.
8. Предложить т. Махмудову обеспечить начало занятий в музыкальной школе 15/IX-37г.
Председатель Нах.ЦИК"а ( Джафаров )

*Naxçıvan MSSR-də musiqi məktəbinin yaradılması haqqında qərarın surəti. 1937-ci il*

“Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin 23 avqust 1937-ci il tarixli Naxçıvan MSSR-də musiqi məktəblərinin yaradılması haqqında Qərarı:

Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyəti Qərara alır.

*1.Naxçıvan MSSR-də musiqi məktəbi yaradılsın.*

*2.1937-1938-ci dərs ilində muxtar respublika üzrə şagird kontingenti rayonlar üzrə 80 nəfər olmaqla aşağıdakı qaydada müəyyən edilsin:*

*a) Ordubad rayonu – 10 nəfər*
*b) Şərur rayonu – 10 nəfər*
*c) Şahbuz rayonu – 5 nəfər*
*q) Culfa rayonu – 3 nəfər*
*Naxçıvan şəhəri – 47 nəfər.*

*3. 1937-1938-ci dərs ilində musiqi məktəbində aşağıdakı ixtisaslar üzrə dərslər müəyyən edilsin: a) Tar; b) Kamança; v) Royal, q) Nəfəsli alətlərdən qaboy, faqot, truba, valtorna, trambon və sair.*

*4. Nəzəriyyə qaydaları*

*5. Məktəbin direktorluğu müvəqqəti olaraq incəsənət məktəbinin inspektoru Hüseyn Baqiyə tapşırılsın.*

*6. Mahmudov və incəsənət işləri üzrə Xalq Komissarları Sovetindəki nümayəndə Səfərova tapşırılsın ki, şagird kontingentinin qəbulunu təmin etsin və lazımi qədər musiqi alətlərinin alınıb gətirilməsini, habelə ixtisaslı dərs hissə müdirinin gətirilməsini təmin etsin. Sonrakı bəndlərdə smeta xərcləri göstərilir, habelə dərslərin 15 sentyabr 1937-ci ildən başlanması tapşırılır”.*

Beləliklə, bu nəticəyə gələ bilərik ki, Naxçıvan Muxtar Respublikasında rəsmi olaraq musiqi məktəbinin tarixi 1937-ci ildən başlanır.

*Dövlətimiz musiqimizi inkişaf etdirmək, onu hər bir evə, ailəyə çatdırmaq üçün hər cür şərait yaradıb, amma əsl mənəvi yük biz musiqi müəllimlərinin üzərinə düşür. Birinci növbədə, milli musiqimizi təbliğ etmək, onun böyüklüyünü, əzəmətini, ən ülvi sevgi, məhəbbət hisslərini həm öz xalqımıza, həm də dünya xalqlarına tanıtmaq, bəyan etməkdir. Muxtar respublikada fəaliyyət göstərən musiqi məktəblərinin başlıca qayəsi bundan ibarətdir. Bu şərəfli və müqəddəs missiyanı isə bu gün əsrarəngiz musiqi dünyasının ilk əlifbasını öyrənən musiqi məktəblərimizin şagirdləri olacaqlar.*

**Zemfira BABAYEVA**
***Naxçıvan Dövlət Universitetinin baş müəllimi, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Torpaq sahəsindən məqsədli təyinatına uyğun olmayan başqa məqsədlər üçün istifadə edilməsi hansı məsuliyyətə səbəb olur?*

***Cavab:*** Azərbaycan Respublikasının torpaq qanunvericiliyinə əsasən torpaqların məqsədli təyinatı torpağın kateqoriyasına uyğun olaraq onun konkret məqsədlər üçün istifadəsinin Torpaq Məcəlləsində və digər normativ-hüquqi aktlarda müəyyən edilmiş qaydaları, şərtləri və həddidir. Torpaq kateqoriyalarının məqsədli təyinatı və hüquqi rejimi qanunvericiliklə müəyyən edilir, şəhərsalma və yerquruluşu sənədlərində əks etdirilir. Kateqoriyalar daxilində torpaqlardan istifadə qaydaları onların təbii-təsərrüfat rayonlaşdırılması, zonalaşdırılması, istifadəsinin ərazi planlaşdırılması və yerquruluşu sənədlərinə uyğun olaraq mülkiyyətçilər, istifadəçilər və icarəçilər tərəfindən müəyyən edilir. Torpağın kateqoriyaları torpağın verilməsi barədə müvafiq icra hakimiyyəti orqanının və ya bələdiyyənin qərarında, torpaq üzərində hüquqları təsdiq edən dövlət aktlarında, şəhadətnamələrdə, dövlət torpaq kadastrı sənədlərində, torpaq qeydiyyatı kitablarında və Torpaq Məcəlləsində göstərilən digər sənədlərdə əks olunur.

Məqsədli təyinatına və hüquqi rejiminə uyğun olaraq ölkəmizin torpaqları kənd təsərrüfatı təyinatlı, yaşayış məntəqələrinin torpaqları, sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı, xüsusi qorunan ərazilərin torpaqları, meşə fondu, su fondu və ehtiyat fondu torpaqları kateqoriyalarına bölünür.

Kənd təsərrüfatı təyinatlı torpaqlar kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, habelə kənd təsərrüfatı sahəsində elmi-tədqiqat, tədris, tədris-təcrübə və sınaq məqsədləri üçün istifadə edilir. Şəhər, qəsəbə və kəndlərin hüdudları daxilindəki bütün torpaqlar yaşayış məntəqələrinin torpaqları hesab edilir. Sənaye, rabitə, nəqliyyat, ticarət, ictimai iaşə və digər istehsal və xidmət obyektlərinin yerləşdirilməsi və fəaliyyəti üçün qanunvericiliklə müəyyən edilmiş qaydada ayrılan və əldə edilən torpaq sahələri sənaye, nəqliyyat, rabitə və digər təyinatlı torpaqlar sayılır. Xüsusi qorunan ərazilərin torpaqları, xüsusi təbiəti mühafizə, elmi, tarix-mədəniyyət, estetik, turizm və rekreasiya, sağlamlaşdırma və digər qiymətli əhəmiyyətə malik olan, müvafiq icra hakimiyyəti və yerli özünüidarə orqanları tərəfindən təsərrüfat istifadəsindən və mülki dövriyyədən tamamilə və ya qismən çıxarılan və üzərində xüsusi hüquqi rejim müəyyən edilən torpaqlardır. Meşə bitkiləri ilə örtülü olan, habelə bu bitkilərlə örtülü olmayan, lakin meşə təsərrüfatının ehtiyacları üçün nəzərdə tutulan meşə və qeyri-meşə torpaqları meşə fondunun torpaqları hesab edilir. Su fondunun torpaqlarına ölkənin daxili sularının və Xəzər dənizinin (gölünün) respublikamıza mənsub olan bölməsinin, su mühafizəsi zonalarının və sahilboyu zolaqların altında olan torpaqlar, adalar və bataqlıqlar, hidrotexniki qurğuların, meliorasiya və su təsərrüfatı obyektlərinin altında olan torpaqlar, ehtiyat fondu torpaqları isə dövlət və bələdiyyə ehtiyat torpaqlarından ibarətdir.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinə əsasən torpaq sahəsindən məqsədli təyinatına uyğun olmayan başqa məqsədlər üçün istifadə edilməsinə görə fiziki şəxslər üç yüz manat məbləğində, vəzifəli şəxslər altı yüz manat məbləğində, hüquqi şəxslər üç min manat məbləğində cərimə edilir. Qeyd olunan xətanın kənd təsərrüfatı təyinatlı torpaqlara münasibətdə törədilməsinə görə isə fiziki şəxslər beş yüz manat məbləğində, vəzifəli şəxslər min manat məbləğində, hüquqi şəxslər beş min manat məbləğində cərimə edilir.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi***

### *İtmişdir*

Şərur rayon Vərməziyar kənd sakini Vəliyev Qorxmaz Baba oğlunun adına olan JN-49 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Məmmədov Asif Məcid oğlunun adına olan sürücülük vəsiqəsi və avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Tumbul kəndində Əkbərov Məmməd Salman oğlunun adına verilən JN-146$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Çənlibel məhəlləsi bina 3, mənzil 16 ünvanda Orucov Mirzə Məmmədhüseyn oğlunun adına verilən 5149 inventar nömrəli texniki pasport və MH-0044111 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 703